

# Şuşa, ilin mübarək!



***Prezident İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan edib. Dövlət başçısı deyib ki, biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa ili" elan edirəm.***

Ulu öndər Heydər Əliyevin vaxtilə söylədiyi "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur" – deyimi bu gün bir daha öz təsdiqini tapır. Şuşanı Qarabağın tacı adlandıran Prezidentimizin "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir" – deməsi hər kəsin ürəyində Qarabağın mirvarisi olan bu şəhərə doğmalığı, məhəbbəti əks etdirir. 30 illik işğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı. Prezidentimizin dediyi kimi, Şuşa bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik.

Şuşanın işğaldan azad edilməsinin bir ilini ötən il noyabrın 8-də təntənəli şəkildə qeyd etdik. Dağıdılmış, bərbad edilmiş şəhər ötən dövr ərzində yenidən qurulur, ona istəyimizə uyğun və yaraşan yeni həyat, yeni nəfəs verilir. Təməlqoyma mərasimləri, bir sıra sosialyönümlü obyektlərin açılışı hər kəsdə ruh yüksəkliyi yaradır. Dövlət başçımızın və birinci xanımın Azərbaycan ədəbiyyatının və incəsənətinin görkəmli nümayəndələri, Milli Məclisin deputatları ilə birlikdə Molla Pənah Vaqifin büstü və məqbərəsinin, Bülbülün ev muzeyinin, Üzeyir Hacıbəylinin heykəlinin açılışlarında iştiraklarından onlar kimi biz də qürur duyduq, fərəhləndik, köksümüz sevincdən qabardı.

Məlum tarixi dönəmdən sonra "Xarıbülbül" Musiqi Festivalı və Vaqif Poeziya Günlərinin keçirilməsi hər birimiz üçün bayrama çevrildi. Əvvəlki səfərdən 39 il sonra Şuşaya Ali Baş Komandan, Prezident kimi gedən cənab İlham Əliyev bu şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan etməklə yanaşı, həm də onu bir müqəddəs ziyarətgah olaraq da dəyərləndirdi.

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbədən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli–Şuşa avtomobil yolu çəkilişi başlandı və "Zəfər yolu" adlanan həmin yol bu gün istifadədədir.

Şuşa Şəhər İcra Hakimiyyətinin binasında təmir işləri sürətlə aparılır. Bu bina nisbətən yeni dövrə aid olduğundan sökülmür, əsaslı təmir olunur. Bünövrəsi möhkəmləndirlir, daxilində son işlər gedir, qapı-pəncərələr də yenilənir.

Ümumiyyətlə, Şuşada tikinti işləri saat kimi dəqiq aparılır. Yenidən qurulan tikililərdən biri də Qarabağ otelidir. Ötən əsrin 80-ci illərdə tikilmiş bu otellə bağlı yaxın tarixə baxaq. Prezident İlham Əliyev Şuşaya səfərlər edərkən burada olmuşdu və otelin yenidən qurulması ilə bağlı tapşırıqlar vermişdi.

İnzibati, turizm obyektləri ilə yanaşı, tarixi abidələr də bərpa edilir. Bu tarixi abidələr Şuşanın keçmişi ilə bağlıdır. Ermənilər işğal dövründə bu abidələri bərbad günə qoyublar. Dağıntılar təmizlənib, bərpa işinin hansı istiqamətdən başlaması ilə bağlı plan tərtib edilib. Çünki hər bir tarixi abidənin spesifik bərpa prosesi var.

Ümumiyyətlə isə bütün istiqamətlərdə bərpa və yenidənqurma işləri nəinki Şuşada, bütövlükdə, Qarabağın digər ərazilərində də aparılır və bundan sonra da aparılacaq.

Şuşa ilində şəhərin tamamilə yenilənəcəyi və sakinlərin doğma şəhərə qaytarılması təmin ediləcək.

***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***